## Gülhüseyn KAZIMLI - 75

# ŞAİRİN KÖNÜL DÜNYASI

Dostlarımın arasında Turan İbrahimovun yeri ayrıdır. Xoş xasiyyəti, yaxşı təbiəti, isti münasibəti var. Adətən elm-bilim, adamları ilə münasibət qurmağı, bundan qarşılıqlı faydalanmağı sevir, dostluğa sadiqdir. Üstəlik, dost olduğu adamlar arasında da isti münasibət yaradır, yeri gəldikcə adamı maraqlı şəxsilərlə də tanış edir, faydalandırır. Özü dediyi kimi, neft mühəndisi - riyaziyyatçı olsa da (texnika üzrə fəlsəfə doktorudur) həmdə humanitar sahəyə çox bağlıdır. Bir sözlə fonlara, musiqiyə, klassik poeziyaya, incəsənət, muğamlara maraq göstərir. Bu istiqamətdə elmi kitabların yazılmasında, axtarışların aparılmasında iştirak edir. Öz cəfakeşliyi, əzmkarlığı ilə hər kəsi heyrətləndirir. Dostumun yaxşı bir xüsusiyyəti də var. Məni belə cəfakeş adamlarla da tanış eləyir, ya da onların kitablarından mənə hədiyyə verir. Beləcə xeyli elm-bilim adamını Turan İbrahimovun vasitəsi ilə tanış olmuşam. Gülhüseyn Kazımlını da belə tanımışam. Bu elm fədaisinə bağlanmışam. Tale elə gətirdi ki, Gülhüseyn müəllimlə bir dəfədə olsun görüşməsəm də onun yaradıcılığına az-çox bələdəm. İctimai xadim, yazıçı, şair və tədqiqatçı idi. Gülhüseyn Kazımlının "Vətən sevgisi", "Yollarda ömür", "Mənə inan", "Ümid yeri", "Bülbülcan", "Qarmonun əfsanəsi", "Salam, Məşədi", "Xanəndə Məşədi Qafar Qaryağdı" kimi kitabların müəllifidir, onun şeirlərinə 30-dan çox mahnı bəstələnib.

Mən bu yazımda Gülhüseyn müəllimin bir kitabından ("Şuşaya o qədər yağış yağmışdı...") söz açacağam. Bu kitabın əvvəlində şairimiz Məmməd Arazın "Şairin dayaq nöqtəsi" məqaləsi verilib. Yazının sonuncu cümləsi belədir: "Poeziyanın yüksələn xəttinin ilk və son nöqtəsi öz istedadında, öz qəlbində dayaq tapır".

Kitabın tərtibçisi və naşiri Turan İbrahimov, redaktoru Kənan Hacıdır.

Şair anadan doğulduğu kəndi - Kavdarı unutmur, bu yerin sevgisi onun qəlbindədir, onun söhbətində, sözündədir. Şair deyir:

Araz vadisində yaşayan o kənd,  
Yaşayır həmişə mənim sözümdə.  
Şəhərdə, tünlükdə deyil, həmişə  
Orda yaşayıram, orda özümdə.

Bəli, müəllif bu yerləri xatırlayanda uşaqlığını, gəncliyini də yada salır:



Körpə dincliyi,  
Uşaq nadincliyi,  
Ömrün gəncliyi,  
Doğma yerlər...

Gülhüseyn müəllim ötənlərin unudulmaz olduğunu belə qeyd edir:

O vaxtdan illər keçib,  
Ömrün acı-şirini...  
İsa-Musa quşları  
Tapmayır bir-birini

Bu kitabda toplanan şeirlərin bəziləri müəllifin səfər etdiyi yerlərdə yazılıb. Bu, müəllifin səfər etməyə, səyahətə maraqlı olduğunu göstərir. Şam Bunu həmin şeirlərin altında qeyd olunan yer adlanır. (Şamotlar, Tallin, Tümen, Leninqrad, Brest, Beymar, Drezden, Maqdeburq, Split, Kəlbəcər, Brno, Karlovi-Varu) da təsdiq edir. Maraqlıdır ki, G.Kazımlı səfərlərdə olanda da vətəni, yurdu unutmur, onu həsrətlə xatırlayır:

Övladıq, ürəkdə məhəbbət dərin,  
Ey Vətən, şöhrətin başımın tacı.  
Yaxşı ki, sən özün hər şeydən şirin,  
Sənin ayrılığın hər şeydən acı!...

Burada şair həm də gözəl bir təzad yaradıb.

Gülhüseyn müəllim harda olur-olsun doğulub böyüdüyün kəndi tez-tez xatırlayır. Bunu Praqada səfərdə olduğu vaxt qələmə aldığı şeirində də göstərir:

Böyük-böyük şəhərlərdə dözə bilmirəm,  
Bu gözəllik, bu böyüklük könlümə yaddır.  
Kim harda doğulubsa ora onundur,  
Əsl həyat o yerlərdə keçən həyatdır.

Bəli, müəllif burada doğulub böyüdüyü Kavdarı xatırlayır. Axı nə uşaqlıq, nə də gənclik xatirələri hər bir insan yaddaşında qalır, yaşa dolduqca xatırlanır, şirinləşir, adamın damağına ayrı bir dad verir. Bunu şair bir şeirində belə qeyd edir:

### Gülhüseyn Kazımlı: "O kəndə borcluyam..."

Öz bar-bağçasıyla, düyünçəsiylə  
Az qala həşdadı haqlayıb nənəm.  
Bütün zərflərdəki bir ünvansa da,  
Bütün məktubları saxlayır nənəm.

Şeirdən də göründüyü kimi, söhbət əsgər məktublarından gedir. Müəllifin digər bir şeiri də bununla səsləşir:

Mənim ünvanımı əzizləyirlər...  
Kimi nəvə səsi-sorağı kimi,  
Kimisi bir evin çırağı kimi.  
Kimisi "bir oğul qırığı" kimi  
Mənim ünvanımı əzizləyirlər.  
Əzizdir ünvanı əsgər olanın,  
Əzizdir ünvanı əsgər oğlanın.

Gülhüseyn Kazımlı sözdən zərgər dəqiqliyi ilə istifadə edir, özünə məxsus ifadələr, yaddaqalan bənzətmələr, adamı düşündürən deyimlər yaratmaqda ustadır:

Bu qalanın divarları səhərə kimi  
Nağıl dedi, nəğmə dedi, qəlbimə girdi.  
Eston dili bilməsəm də başa düşdüm,  
Qala dili, nağıl dili hər yerdə birdi.

Maraqlıdır G.Kazımlı "İki nağıl" şeirində ilk eşqin "nağıl"a çevrildiyini deyir:

Nağıla bənzəyir o ilk görüşdə,  
Yaşar təmiz hisslə, uzaq xəyalda.  
Nağıla köçmüşük biz özümüz də,  
Sən bir nağıldasan, mən bir nağılda

Kövrək, həssas, alovlu vətənpərvər şair dünyanın qəribəliklərini də özünə məxsus bir dildə verir:

Üstündə əsdiyin dönüb məhv olur,  
Gəzirsən dünyanı yenə gümansız.  
Yüz dəfə ölçdüyün bir iş səhv olur,  
Bir dəfə biçirsən-səhvsiz-filansız.  
Bəlkə buna görə gözəldir dünya,  
Yaşadır qoynunda qəribəlikləri.

Gülhüseyn müəllim səyahət etməkdən, ayrı-ayrı yerləri gəzməkdən zövq alır, bunu onun səfər zamanı yazdığı şeirlər də təsdiqləyir. O da maraqlıdır ki, müəllif bir şeirində uzaq səfərlərə xitab da edir:

Ey uzaq səfərlər, muradım, kamım,  
Keçin arzu kimi, keçin qəlbimdən.  
Nə vaxtdı mən sizi arzulamadım,  
Bilin ki, o zaman qocalmışam.

Gülhüseyn Kazımlı doğma kəndi Kavdarı həsrətlə xatırlayır, o kəndə borclu olduğunu da dilə gətirirdi:

Ürəyim döyünür, hisslərim oyaq,  
Dönürəm kəndimə hər gecə yarı.  
O kəndə borcluyam həmişə, hər vaxt,  
Axır ürəyimə gur bulaqları.

Humanist müəllif silahlanmaya, qanlı müharibə ocaqları yaratmaq istəyənlərə qarşı dünyamızın əmin-amanlığı onu düşündürürdü. O, bu düşmənlərini belə əks etdirir:

Sakit okeanda həngaməyə bax,  
Sular oyum-oyum oyulur bu gün.  
Sualtı gəmilər hesaba gəlməz,  
Balıqlar barmaqla sayılır indi.

Sakitlik qalmayıb, okean coşur,  
Qayıqlar az qalır sahili yara.  
Az qalır balığa tor atanda da,  
Sualtı qayıqlar düşərlər tora.

Bu kitabda Gülhüseyn müəllimin şeirlərinə yazılmış mahnılar (on bir mahnı mətni) da verilib. Bunlardan "Gənclik ömrün baharıdır", "Qadın əlləri" kimi mahnı mətnləri adamın diqqətini çəkir. Bu mahnı mətnlərinin hər birindən bir nümunə verməyi məqbul hesab edirəm.

Buludlardan enməz heç vaxt,  
Boran ola, dönməz heç vaxt,  
Günəş kimi sönməz heç vaxt  
Gənclik ömrün baharıdır.

Qadın əlləri nəğməyə bənzər,  
Süzülər elə bil yaz buludundan.  
Qadın əlləri arzuya bənzər,  
Keçər ürəyinin yüz umudundan.

Əlbəttə, bu şeirlər haqqında çox söz demək olar. Gülhüseyn Kazımlı 2024-cü ilin fevralında vəfat edib. Bu böyük şair, alim və yazıçının bu il, 4 fevral 2025-ci ildə 75 illiyi tamam olur. Ruhun qarşısında baş əyir, Gülhüseyn müəllimə qəni-qəni rəhmət diləyirəm.

***Tacir SƏMİMİ***  
***filologiya üzrə fəlsəfə doktoru dosent.***